# “Heydər Əliyev və Türk dünyası”

**Ankarada Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci illiyi münasibətilə “Heydər Əliyev və Türk dünyası” mövzusunda panel müzakirələri keçirilib.**



Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) işlər müdiri Əvəz Səfərovun XQ-yə verdiyi məlumatda bildirilir ki, TADİV-in və Azərbaycanın Türkiyədəki səfirliyinin təşkilatçılığı keçirilən tədbirdə Türkiyə Prezident Administrasiyasının və Xarici İşlər Nazirliyinin məsul şəxsləri, Türkiyə Böyük Millət Məslisinin deputatları, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Qırğızıstan və Şimali Kipr Türk Respublikasının Ankaradakı səfirləri, sabiq diplomatlar, SOCAR və bir sıra qeyri-hökumət təşkilatlarının nümayəndələri, həmçinin qardaş ölkədə təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.

TADİV rəhbəri, professor Aygün Attar və ölkəmizin Türkiyədəki səfiri Rəşad Məmmədov açılış çıxışları edərək Ümummilli lideriin Azərbaycan tarixindəki danılmaz rolundan danışıb, XX əsr tariximizin 50 ildən çox bir dövrünün Heydər Əliyev şəxsiyyəti və onun böyük quruculuq fəaliyyəti ilə sıx bağlı olduğunu, dahi şəxsiyyətin, sadəcə, Azərbaycana deyil, bütün türk xalqlarına xidmət etdiyini vurğulayıblar.

Panel müzakirələrdə çıxış edən Türkmənistan, Qırğızstan, Qazaxıstan və Şimali Kipr Türk Respublikasının Ankaradakı səfirləri, Türkiyə XİN nümayəndəsi Ayşə Üzər, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım, Türkiyənin Azərbaycandakı sabiq səfiri Hulusi Kılıç və digərləri Heydər Əliyevi dövrünün dahi lideri və siyasət ustası adlandırıb, onun uzaqgörən siyasətindən, Türk dövlətləri ilə münasibətlərə verdiyi xüsusi önəmdən danışıblar.

Panel müzakirələri jurnalist Aysel Sadak İltaşın qələmə aldığı “İnsan ürəyi ilə Heydər Baba” kitabının təqdimatı ilə yekunlaşıb.

***XQ***

Xalq qəzeti .- 2025.- 8 may (№ 93).- S.6.